# Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclasının

## P R O T O K O L U  № 4

**Naxçıvan şəhəri** **16 avqust 2024-cü il**

16 avqust 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin növbəti iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin üzvü Tofiq Babayev

**İclasda iştirak etdilər:**

1. Həsənova Esmira Həsən qızı -Komitənin sədr müavini
2. Bağırsoylu Hüseyn Qədirulla oğlu -Komitənin üzvü
3. İsmayılov Ehtibar Şəhrud oğlu -Komitənin üzvü
4. Qasımov Arif Mikayıl oğlu -Komitənin üzvü
5. Quluyeva Sevda Rüstəm qızı -Komitənin üzvü
6. Məmmədov Nazim Məmməd oğlu -Komitənin üzvü
7. Vəliyev Musa Məmməd oğlu -Komitənin üzvü

**Dəvət olunanlar:**

1. Nihad Möhbalıyev - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri
2. Ramil Nəbiyev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
3. Həsən İsmayılov - Naxçıvan Muxtar Respublikasının maliyyə naziri
4. Fərid Bağırzadə - Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
5. Yeganə Məmmədova - Ali Məclisin deputatı, Ali Məclisin Sosial siyasət komitəsinin sədri
6. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsi müdirinin müavini

7. Firudin Məmmədov - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin Büdcə nəzarəti sektorunun müdiri

8. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri

9. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının 2 əməkdaşı

**İclasın gündəliyi:**

**1. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanununda düzəliş olunması**

**2. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu**

İclası komitənin sədri İsa İsayev açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin 9 üzvü, Ali Məclisin Sosial siyasət komitəsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadi məsələlər və Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbələrinin müdirləri, Aparatın digər əməkdaşları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının əməkdaşları, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri və Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini iştirak edirlər.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

İsa İsayev iclas iştirakçılarına gündəlikdə duran məsələlər ilə bağlı məlumat verdi və deputatların əvvəlcədən məlumatlandırılması məqsədilə müvafiq Qanun layihələrinin Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsi tərəfindən bütün deputatların fərdi elektron poçt ünvanlarına göndərildiyini bildirdi.

Çıxışda komitə sədri qeyd etdi ki, 13 avqust 2024-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının qanunlarında dəyişiklik edilməsi ilə bağlı İqtisadi siyasət komitəsinin iclası keçirilib. İclasda gündəliyə daxil olan məsələlərlə bağlı müzakirələr aparılıb və komitənin qərar və rəyi hazırlanıb, 14 avqust 2024-cü il tarixdə birinci oxunuş üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasına təqdim edilib. Birinci oxunuşda "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin 7-1-ci maddəsində düzəliş olunması ilə bağlı təklif səsləndirilib və qeyd edilən təklif nəzərə alınaraq qanun layihəsinin müvafiq maddəsində dəyişiklik edilib, digər maddələrdə isə hər hansı bir dəyişiklik aparılmayıb.

İsa İsayev qanun layihəsinin 7-1-ci maddəsində edilən dəyişiklik barədə məlumat verdi.

**Əvvəlki məzmunda:**

“**Maddə 7-1.** “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun kəsiri 12 320 184 manat məbləğində müəyyən edilsin və həmin kəsrin bağlanması “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun 2024-cü il yanvarın 1-nə olan həmin məbləğdə vəsait qalığı hesabına təmin edilsin.”

**Düzəliş olunmuş məzmunda:**

“**Maddə 7-1.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin (o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun) kəsiri 12 320 184 manat məbləğində təsdiq edilsin və həmin kəsrin bağlanması “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun 2024-cü il yanvarın 1-nə olan həmin məbləğdə vəsait qalığı hesabına təmin edilsin.”

Komitə sədri qeyd etdi ki, “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda isə hər hansı bir dəyişiklik olmadığı üçün qanun layihəsi olduğu kimi saxlanılıb.

İsa İsayev qeyd olunan məsələlərlə bağlı iclas iştirakçılarından sual və təklifi olan varsa səsləndirməsini xahiş etdi.

İclas iştirakçıları müvafiq qanun layihələri ilə bağlı sual və təkliflərinin olmadığını bildirdilər.

**Çıxışda:** Komitə sədri İsa İsayev bildirdi ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən komitə müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir. Müzakirə olunan məsələlər ilə əlaqədar İqtisadi siyasət komitəsinin rəyi hazırlanmışdır.

Sonda İsa İsayev altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin rəyini oxudu və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun müvafiq maddəsi nəzərə alınaraq dəyişiklik olunmuş qanun layihələrinin Ali Məclisin müzakirəsinə çıxarılması tövsiyə edildi.

**İclasa sədrlik edən:** **İ.İsayev**

**Katib:** **T.Babayev**